**HUMANİTAR ELMLƏR BÖLMƏSİ**

UOT 94(479.24)

# AZƏRBAYCANDA FEODAL MÜNASİBƏTLƏRİNİN GENEZİSİ PROBLEMİNƏ DAİR

**Nizami Dilənçi oğlu Zeynalov**
tarix üzrə fəlsəfə doktoru
Mingəçevir Dövlət Universiteti
nizami.zeynalov@mdu.edu.az

***Xülasə:*** *Hazırkı məqalə Azərbaycanda feodal münasibətlərinin genezisi probleminə həsr edilmişdir. Azərbaycanın orta əsrlər tarixinin ayrı-ayrı problemlərinin dərindən öyrənilməsi Azərbaycan tarixi qarşısında dayanan əhəmiyyətli vəzifələrdən biridir. Vətən tarixşünaslığında böyük aktuallıq kəsb edən belə problemlərdən biri də Azərbaycanda feodal münasibətlərinin təşəkkülü və inkişafı problemidir. Ədalət naminə qeyd etmək lazımdır ki, Azərbaycanda erkən orta əsrlər dövründə feodalizmin genezisi problemi yalnız sovet tarixşünaslığında tədqiqat obyektinə çevrilmiş, bu problemin tədqiqi nə qərb tarixçilərinin, nə də sovet tarixşünaslığınaqədərki çarlıq Rusiyası tarixçilərinin diqqətini cəlb etmişdir. Təəssüflə qeyd etmək lazımdır ki, Azərbaycanın erkən orta əsrlər dövrünə dair bu və ya digər məsələlərə toxunan qərb tarixçiləri bu problemləri İran tarixi nöqteyi-nəzərindən şərh etmiş, bəhs edilən dövrün sosial-iqtisadi məslələrinə isə ümumiyyətlə diqqət ayırmamışlar.*

*Azərbaycanın şimal və cənub ərazilərində sosial-iqtisadi vəziyyətin təhlili göstərir ki, eramızın III-V əsrlərində burada feodal münasibətləri bərqərar olmuşdu. Bəhs edilən dövrdə feodal torpaq mülkiyyəti formaları meydana gəlmiş, feodalizmin əsas sinifləri formalaşmış, bu siniflərin daxilində dərin təbəqələşmə prosesi getmiş və feodal istismarı mövcud olmuşdur.*

***Açar sözlər:*** *Azərbaycan, feodalizm, feodal istismarı, Sasanilər, Abaniya, Atropatena*

## Giriş

Azərbaycanın orta əsrlər tarixinin ayrı-ayrı problemlərinin dərindən öyrənilməsi Azərbaycan tarixi qarşısında dayanan əhəmiyyətli vəzifələrdən biridir. Vətən tarixşünaslığında böyük aktuallıq kəsb edən belə problemlərdən biri də Azərbaycanda feodal münasibətlərinin təşəkkülü və inkişafı problemidir. Ədalət naminə qeyd etmək lazımdır ki, Azərbaycanda erkən orta əsrlər dövründə feodalizmin genezisi problemi yalnız sovet tarixşünaslığında tədqiqat obyektinə çevrilmiş, bu problemin tədqiqi nə qərb tarixçilərinin, nə də sovet tarixşünaslığınaqədərki çarlıq Rusiyası tarixçilərinin diqqətini cəlb etmişdir. Təəssüflə qeyd etmək lazımdır ki, Azərbaycanın erkən orta əsrlər dövrünə dair bu və ya digər məsələlərə toxunan qərb tarixçiləri bu problemləri İran tarixi nöqteyi-nəzərindən şərh etmiş, bəhs edilən dövrün sosial-iqtisadi məslələrinə isə ümumiyyətlə diqqət ayırmamışlar [11, s.20]. Sovet tarixşünaslığında isə bu problem yalnız XX əsrin 50-ci illərindən başlayaraq tədqiqat obyektinə çevrilmişdir. Sovet tarixşünaslığında problemin araşdırılması ilə bağlı Z.Yampolskinin, K.Treverin, Z.Bünyadovun, T.Məmmədovun, S.Qasımovanın və F.Məmmədovanın xidmətləri xüsusi qeyd olunmalıdır [3; 4; 5; 9; 13; 14; 21; 23]. A.Novoseltsevin ötən əsrin 80-cı illərində problemə dair nəşr edilən ümumiləşmiş monoqrafiyası da problemin həlli istiqamətində əhəmiyyətli yeniliyə nail ola bilmədi [16]. Mövcud materialları tarixi-müqayisəli analiz metodu vasitəsilə araşdıran müəllif Albaniyada mövcud problemin həlli istiqamətində bu materialların qonşularına (Ermənistan və Gürcüstan) nisbətən kifayət qədər az olduğunu bir daha vurğulamışdır [16, s.6]. Müstəqillik dövrünün çağdaş vətən tarixşünaslığında problemin araşdırılması istiqamətində demək olar ki, yeni elmi-tədqiqat işləri aparılmamış, keçmiş sovet tarixşünaslığının nümayəndələri öz əvvəlki elmi nəticələrini yenidən nəzərdən keçirmiş və nəşr etdirmişlər [10; 14].

Vətən tarixşünaslığında formalaşmış ümumi fikrə görə artıq III-V əsrlərdən Azərbaycanda feodalizmə xas münasibətlər meydana gəlib, inkişaf etməyə başladı. Lakin təəssüflə qeyd etmək lazımdır ki, yazılı qaynaqların məhduduluğu üzündən ilk dövrlərdə Azərbaycanda feodal münasibətlərinin meydana gəlməsi prosesini izləmək çox çətindir. Digər tərəfdən, Azərbaycanda əvvəlki dövrün, yəni quldarlıq ictimai-iqtisadi formasiyasının zəif öyrənilməsi də məsələni xeyli çətinləşdirir. Çünki feodalizmin meydana gəlməsinə səbəb olan amillərin bir çoxu bilavasitə əvvəlki dövrün problemləri ilə sıx bağlıdır. Məlumdur ki, Azərbaycanda quldarlıq quruluşunun inkişafını və bu quruluşun tənəzzülünü yazılı mənbələr əsasında izləmək çətindir. Çünki mənbələrdə bunu təsdiq edən faktlar yetərli sayda movcud deyil. Əldə olan mövcud mənbə məlumatları Atropatenada quldarlıq quruluşu barədə demək olar ki, təsəvvür yaratmağa imkan vermir. Doğrudur, erkən qaynaqlar Sasani İranında quldarlığın bir uklad kimi inkişafı haqqında, təsərrüfatda və məişətdə qul əməyindən istifadə barədə müəyyən təsəvvür yaratsa da, bu münasibətlərin Atropatenada konkret tətbiqi ilə bağlı mənbə məlumatları yox dərəcəsindədir. Albaniyada isə quldarlıq münasibətlərinin hələlik məbəd quldarlığı (məbədin asılı xidmətçiləri) səviyyəsində, icma münasibətlərinin qalıqları şəraitində bir uklad formasında inkişaf etməsi barədə fikir irəli sürmək mümkündür [23]. K.Əliyevin fikrincə qədim alban cəmiyyətində qul əməyinin ikinci dərəcəli olması, cəmiyyətin təsərrüfat həyatına ciddi təsir etmədiyinin irəli sürmək olar [6, s.320-321; 7, s.150-151]. Beləliklə, tarixi Azərbaycan ərəazilərində quldarlıq ictimai-iqtisadi formasiyasının mövcudluğu haqqında mənbəşünaslıq bazası zəif olduğundan və bu münasibətlərin təsərrüfatda və məişətdə tətbiqi zəif öyrənildiyindən burada feodalizm cəmiyyətinə keçidin konkret formaları barədə təsəvvür yaratmaq da xeyli çətindir.

Bundan başqa, nəzərə almaq lazımdır ki, Azərbaycanda feodalizmə xas olan münasibətləri öyrənmək üçün ən erkən sənədli materialların tarixi V əsrin sonlarından dərinə getmir. Bu dövrə aid olan narrativ qaynaqlar isə yalnız VII-IX əsrlərin qaynaqlarıdır. Beləliklə, aydın olur ki, feodalizmin yaranmasının ilkin mərhələsini həmin dövrə aid olan qaynaqlar əsasında deyil, əsasən sonrakı dövrün qaynaqlarının məhdud məlumatları və qonşu ölkələrdəki sosial-iqtisadi vəziyyət əsasında öyrənmək mümkündür.

**Feodal münasibətlərinin təşəkkülü**

Məlumdur ki, feodal münasibətləri heç də birdən-birə yaranmamışdır. Onun rüşeyimləri hələ quldarlıq quruluşu dövründə meydana gəlmişdir. Belə ki, eramızın ilk əsrlərində əmək alətlərinin təkmilləşdirilməsi, əkinçilik, maldarlıq və sənətkarlığın inkişafı əmək məhsuldarlığının artmasına səbəb olurdu. Qeyd etmək lazımdır ki, Azərbaycanın şimalında aparılan sistemli arxeoloji tədqiqat işləri xüsusilə, e.ə. I minilliyin əvvəllərindən başlayaraq minilliyin sonlarına doğru, yəni erkən orta əsrlərdən əvvəlki dövrdə cəmiyyətin məhsuldar qüvvələrinin sürətli inkişafı, əmək alətlərinin təkmilləşdirilməsi, əkinçilik, maldarlıq və sənətkarlığın inkişafı, cəmiyyətdə dərin təbəqləşmənin baş verməsi haqqında fikir yürütməyə imkan verir [6;20;21;22]. Məhsuldar qüvvələrin sürətli inkişafı isə öz növbəsində, cəmiyyətdə istehsal münasibətlərinin xarakterinin dəyişməsinə, feodalizmə xas olan sosial-iqtisadi münasibətlərin bərqərar olmasına gətirib çıxarırdı. Tədricən torpaq sahibkarlığının yeni səciyyəvi xüsusiyyətləri meydana gəlirdi. Azsaylı mənbə məlumatları əsasında güman etməyə əsaslar vardır ki, Azərbaycanda (Adurbadaqanda və Albaniyada) feodal torpaq sahibliyi iki əsas yolla formalaşırdı. Bunlardan birincisi, azad kəndli icmalarının dağılması, icma torpaqlarının varlı icma üzvləri və məmurlar tərəfindən qəsb edilməsi nəticəsində baş verirdi. Belə ki, məhsuldar qüvvələrin inkişafı şəraitində icma daxilində sosial bərabərsizliyin dərinləşməsi, yoxsul icma üzvlərinin müflisləşməsi tədricən onların öz torpaqlarını itirməsinə və bu torpaqların varlı icma üzvləri tərəfindən qəsb edilməsinə gətirib çıxarırdı [10, s.74]. Ölkədə baş verən bir çox siyasi proseslər də iqtisadiyyatın inkişafına xeyli ziyan vurur, torpağın yüksək təbəqələrin əlində cəmləşməsinə şərait yaradırdı. Digər tərəfdən, bir sıra məmurlar tutduğu vəzifələdən istifadə edərək külli miqdarda torpaq və sərvət ələ keçirə bilirdilər. Nizamülmülkün məlumatına görə I Xosrov Ənuşirəvan Adurbadaqan hakimini cəzalandırarkən onun Azərbaycanla yanaşı Xorasanda, Farsda və İraqda malik olduğu onlarla mülk və torpaqlarını da müsadirə etmişdi [24, s.38]. Bu cür torpaqları ələ keçirən mülk sahibləri əldə etdikləri torpaqları irsən nəsildən-nəslə ötürürdülər.

Feodal torpaq sahibliyinin yaranmasıın ikinci yolu isə dövlət və ya hökmdar tərəfindən məmurlara xidmət müqabilində torpaqların paylanması idi [10, s.74 ]. Xüsusi xidmət adamlarına paylanmış belə torpaqlar sayəsində sırf "feod" tipli mülkiyyət formalaşırdı. Tədricən bu cür torpaqları alan mülk sahibləri öz torpaqlarını irsən ötürməyə başlayırlar ki, bu da feodal torpaq sahibkarlığının ən səciyyəvi xüsusiyyətlərindən birini təşkil edir.

Bundan başqa, qeyd etmək lazımdır ki, Azərbaycanda feodal münasibətlərinin inkişafı həm də xarici amillə sıx bağlı idi. Belə ki, eramızın III əsrindən tarixi Azərbaycan ərazilərinin Sasani imperiyasının hakimiyyəti altına düşməsi imperiyanın mərkəzi əyalətlərində gedən sosial-iqtisadi proseslərin Azərbaycana da təsir göstərməsinə səbəb olurdu. Sasani imperiyasının mərkəzi əyalətlərində sürətlə inkişaf edən feodallaşma prosesi istər-istəməz Azərbaycanın cənubunda və şimalında feodal münasibətlərinin inkişafına və burada da feodallaşma prosesinin sürətlənməsinə öz təsirini göstərirdi.

**Feodal torpaq sahibkarlığı**

Bəhs edilən dövrdə Azərbaycanda feodal torpaq sahibkarlığının iki əsas forması meydana gəlmişdi: birincisi, dastgird və ya dastakert (əllə yaradılmış, torpaq sahəsi, mülk), ikincisi, xvastaq və ya xostak (əmlak) torpaqları. İstər Sasani qaynaqlarında, istərsə də yerli Alban mənbələrində dastakert və xostak torpaqları ilə bağlı xeyli sayda faktik məlumatlar vardır. Belə ki, VII əsrin 20-ci illərinə aid edilən "Sasani qanunnaməsi"ndə ayrı-ayrı şəxslərin əllərində olan onlarla dastakert mülkləri onların girov qoyulması, borca görə verilməsi, vəsiyyət edilməsi, irsən ötürülməsi və s. hallarla əlaqədar xatırlanmışdır [17, s.53, 54, 113, 154, 302, 336]. Lakin maraqlıdır ki, "Sasani qanunnaməsi"ndə dastakertlər təkcə torpaq sahəsi kimi deyil, həm də bəzi hallarda əmlak kimi xatırlanmışdır [17, s.458]. "Sasani qanunnaməsi"ndə dastakertlər həm də feodal domeni, yəni feodalın şəxsi mülkü, habelə hökmdar ailəsinə məxsus irsi mülk kimi xatırlanır [12, s.17]. Deməli, dastakert torpaq sahibliyi əslində icma torpaq sahibliyinin (allod) dağılması və torpağın hakim sinfin nümayəndələrinin əlinə keçməsi nəticəsində formalaşan irsi və şərtsiz torpaq sahibliyi idi. Dastakert mülklərinin Albaniyada da mövcud olması haqqında xeyli sayda mənbə məlumatları vardır. Moisey Kalankaytuklu Alban hökmdarı III Vaçaqandan söz açarkən onun Xançik adlı sevimli qızının adına irsi mülk – dastakert yaratmasından bəhs etmişdir [2, s.76; 8, s.62, 25, s.48]. Aquen kilsə məclisinin qanunlarında (20-ci maddə) da azatların dastakertlərə malik olması və bu mülklərdə yaşayan keşişləri yepiskoplarının razılğı olmadan oradan çıxartması qadağan edilir [2, s.81; 8, s.69, 25, s.53].

Sasani imperiyasında, o cümlədən bu imperiyanın tərkibinə qatılmış tarixi Azərbaycan ərazilərində digər feodal torpaq mülkiyyəti kimi xostak mülklərinin adı mənbələrdə xatırlanmaqdadır. Maraqlı cəhət ondan ibarətdir ki, "Sasani qanunnaməsi"ndə ilk dövrlərdə dastakertlərlə xostaklar arasında elə ciddi fərq qoyulmamışdır. Belə ki, dastakertlər kimi xostaklar da irsi verilir, bağışlanır, vəsiyyət edilirdi [19, s.11-17]. Qeyd etmək lazımdır ki, Azərbaycanın şimalında xostakların verilməsi mənbələrdə daha tez-tez xatırlanmışdır. Dastaketlərlə müqayisədə xostak mülklərinin tarixşünaslıqda da araşdırılmasına daha çox yer verilmişdir. Mənbəşünaslıq bazasının təhlili göstərir ki, xostak dövlət tərəfindən hakim sinfin nümayəndələrinə, habelə kilsə xadimlərinə müəyyən xidmət müqabilində torpaq verilməsi nəticəsində meydana gəlmiş və ilk dövrlərdə irsi xarakter daşımayan mülkiyyət forması idi. Çünki qaynaqlarda xostakların geri alınması haqqında məlumatlar vardır. Aquen kilsə məclisinin qanunlarında (6-cı maddə) kilsə xidmətlərini düzgün yerinə yetirməyən keşişlərin xostaklarından məhrum edilməsi və torpaq mülkünün kilsəyə geri verilməsi barədə göstərişlər vardır [2, s.80; 8, s.67, 25, s.52].

Lakin tədricən xostakların dastakertlərə çevrilməsi, daha dəqiq desək, irsən ötürülməsi prosesi gedirdi [1, s.41]. Qaynaqların məhdud məlumatlarından görünür ki, IV-V əsrlərdə dövlətin torpaq fondu getdikcə azalırdı [5, s.157]. Dastakert və xostaklardan başqa Azərbaycanın şimalında, Albaniyada feodal torpaq sahibliyinin daha bir forması, kilsə və ya monastr torpaqları da mövcud idi. Monastr torpaq sahibliyi hələ xristianlığaqədərki keçmiş məbəd torpaqlarından, habelə dövlətin, hökmdarın və xüsusi şəxslərin verdikləri ianə torpaqları hesabına meydana gəlmişdi. Kilsə xadimləri məhz bu torpaqlar hesabına xostakla təmin olunurdular [1, s.41].

**Feodal istismarı. Vergi və müəkləfiyyətlər.**

Feodal istismarının əsas formaları vergi və mükəlləfiyyətlər idi. Mənbələrin məlumatından aydın olur ki, Azərbaycanın cənubunda əhali əsasən iki adda, gezit (qazidağ) – can vergisi və xaraq – məhsul vergisi, habelə əlavə olaraq xarq vergisi də ödəyirdi. Məlumdur ki, qazidağ vergisi əsasən I Xosrov Ənuşirəvanın islahatlarından sonra adambaşına vergi formasında sistemli şəkildə tətbiq edilməyə başlandı [18, s.147]. Bu vergi sonradan ərəblər tərəfindən mənimsənilərək cizyə vergisi formasında tətbiq edilmişdir. “Sasani qanunnaməsi”indən aydın olur ki, xarq vergisi bəzən də bar vergisi adı altında əsasən ölünün ruhunun bağışlanması üçün əhalidən toplanılan vergi olmuşdur [17]. Tədqiqatçı alim S.Qasımova mənbə məlumatlarına əsaslanaraq xarq vergisini həm də feodal mükəlləfiyyəti, yəni torpaq sahibkarının xeyirinə icra edilən iş hesab etmişdir [10, s.77]. Güman olunur ki, hər üç vergi növü Adurbadaqan əhalisindən də alınmışdır.

Azərbaycanın şimalına – Albaniya ərazisinə gəlincə isə bu adda vergilərin toplanması barədə əlimizdə tutarlı məlumatlar olmasa da, hər halda güman etmək olar ki, Sasani imperiyasının tərkibində olan Albaniyada da eyni adda vergilər mövcud olmuşdur. Bununla belə, Aquen kilsə məclisinin qanunlarına əsasən Albaniyada daha bir neçə adda kilsə vergisinin mövcud olduğunu qeyd etmək olar. Nəzərə alsaq ki, orta əsrlər dövründə xristian kilsələri iri feodal mülklərinə sahib olan feodal təşkilatı idi və din xadimləri də feodallar sinifinə daxil idi, onda kilsənin xeyirinə ödənilən vergi və mükəlləfiyyətlər də feodal istismarının tərkib hissəsi hesab edilməlidir. Albaniyada xristianlığın dövlət dininə çevrilməsindən sonra qaynaqlarda kilsənin nəfinə alınan vergilər haqqında məlumatlar mövcuddur. Bunlar: has, tasanord, ptuq və hogesatur vergiləridir. Qeyd etmək lazımdır ki, bu vergilərin bəziləri həm də dünyəvi feodalların xeyirinə alınmışdır.

Has (gəlir, pay, sədəqə) vergisi əsasən kilsənin xeyirinə alınan can vergisi idi və adambaşına toplanılırdı. Aquen kilsə məclisinin qanunlarından aydın olur ki, has vergisini kilsənin xeyirinə əsasən əhalinin varlı təbəqələri sədəqə formasında verirdi. Qanunun 3-cü maddəsində göstərilir ki, “adlı-sanlı əyan və çar nəslindən olan şəxs ömrü boyu öz əliylə öz canı üçün bir yəhərli-qayışlı atı və hər nə bacarırsa verməlidir” [2, s.79; 25, s.53]. Akademik F.Məmmədova mənbə məlumatlarının dərindən təhlili əsasında hesab edir ki, Albaniyada has vergisini kilsənin xeyirinə təkcə əhalinin yuxarı təbəqələri deyil, əslində bütün xristian əhali ödəmişdir [13, s.82].

Aquen kilsə məclisinin qanunlarına görə əhalidən tasanord adlandırılan kilsə onda biri vergisi alınırdı. Qanunun 18-ci maddəsindən aydın olur ki, tasanord vergisi baş kilsə ilə, yerli kilsə arasında bərabər bölünmüşdür [2, s.81; 8, s.69, 25, s.53]. Albanşünas alim T.Məmmədov göstərir ki, bu vergi əldə edilən gəlirin onda bir hissəsindən alınırdı və bu vergini təkcə asılı əhali deyil, hətta azad adamlar da ödəyirdi [4, s.219]. Akademik F.Məmmədova da tasanord vergisinin əhalinin aşağı təbəqələri tərəfindən ödənilməsini istisna etməmişdir [13, s.83]. Akademik Z.Bünyadov öz tərcüməsində isə bu vergini üşr – onda bir vergisi ilə müqayisə etmişdir [2, s.81]. Aquen kilsə məclisi qanunlarının bilavasitə qrabardan (qədim erməni dili) ingilis dilinə ilk tərcüməçilərindən olan Ç.Dovset də tasanord terminini “tithe” (the nobles who pay tithes) kimi tərcümə etmişdir [24, s.53]. V.Millerin lüğətində “tithe” sözünün üç mənasından birincisi və ikincisi tarixi termin kimi “kilsə onda biri” və ya “kilsə onda biri vergisi ödəmək” mənalarında göstərilmişdir [15, s.816].

Albaniyada xristian əhalisindən toplanan vergilərdən biri də ptuq (məhsul) vergisi idi. Qeyd etmək lazımdır ki, ptuq təkcə kilsə vergisi deyildi, həm də feodalların xeyirinə alınan vergi idi. Kilsə vergisi kimi əvvəllər könüllü olan ptuq vergisi sonralar məcburi vergi kimi alınmışdır [13, s.84]. Aquen kilsə məclisi qanunlarına əsasən (4-cü maddə) ptuq vergisi buğda, arpa, şirin çaxır kimi məhsullardan, habelə mal-qaradan, yun, pendir kimi məhsullardan alınmışdır [2, s.79; 25, s.51]. Mənbədən aydın olur ki, ptuq vergisinin toplanması zamanı sosial ədalət prinsipi gözlənilmişdir. Belə ki, qanunun 4-cü maddəsində qeyd olunur ki, “kasıb adam varlının ödədiyi taxıl məhsulunun yarısını, şirin çaxırdan isə bacardığı qədər vergi ödəməli, bağı və ya əkin yeri olmayandan isə heç nə alınmamalıdır” [2, s.79; 25, s.51]. Vergi təkcə əkinçilərdən deyil, maldarlardan da alınmışdır. Qanunda göstərilir ki, “kimin təsərrüfatında qoyunu varsa 1 qoyun, 3 qoyunun yunu və bir parça pendir, atı olan 1 dayça, iribuynuzlu heyvanı olan isə 1 buzov verməlidir” [2, s.79; 25, s.51].

Aquen kilsə məclisinin qanunlarından (5-ci və 19-cu maddələr) görünür ki, Albaniya əhalisindən alınan kilsə vergilərindən biri də hogesatur (ruh vergisi) vergisi, yəni "ölünün ruhunun rahatlanması" üçün alınan vergi olmuşdur. Qanunun 5-ci maddəsində göstərilir ki, "heç bir əsilzadə, kəndli və ya başqa biri ölənlərin xatirəsini yad etmək üçün ildə bir dəfə özünə layiq nəzirini verməyi unutmamalıdır. Onlar öz gəlirlərindən ölənləri üçün pay ayırmalıdır" [2, s.80; 25, s.51]. Qanunun göstərişindən aydın olur ki, hogesatur vergisini Albaniyanın bütün əhalisi əmlak vəziyyətindən və imtiyazından asılı olmayaraq ödməli idi. Təssüf ki, qanunda verginin miqdarı haqqında heç bir məlumat xatırlanmamışdır. Burada sadəcə göstərilir ki, ölən şəxsin atı var idisə istədiyi bir atı, mal-qarası var idisə istədiyi bir buzovu kilsəyə verilməlidir" [2, s.79; 25, s.51]. Qanunun 19-cu maddəsi də hogesatur vergisinin vacibliyini hər bir xristiana bir daha xatırladırdı [2, s.81; 25, s.53].

Təəssüf ki, Albaniyada toplanan bu vergilərin heç də hamısının dəqiq miqdarı haqqında mənbələrdə məlumat verilməmişdir. Lakin göstərilən vergi və mükəlləfiyyətlərin təyin edilməsi erkən orta əsrlərdə Azərbaycanda feodal istismarının mövcudluğundan xəbər verirdi.

**Feodalizmin əsas sinifləri**

Mənbələrdən aydın şəkildə görünür ki, erkən orta əsrlərdə Azərbaycanda feodalizmin əsas sinifləri – feodallar və kəndlilər təbəqəsi də meydana gəlmişdi. Bəhs edilən dövrdə qaynaqların məlumatı əsasında hesab etmək olar ki, Albaniyada feodalllar sinfini təmsil edən azatlar (nəcib, qəbilə daxilində doğulmuş) və azad icmaçı kəndliləri təmsil edən şinakanlar zümrəsi formalaşmışdı [14, s.442-481]. Azərbaycanın cənubunda – Atropatenada da feodallar ümumi adla azatlar adlandırılırdı [3, s.79].

Aquen kilsə məclisinin qanunlarından aydın olur ki, Albaniyada həm feodallar, həm də kəndlilər arasında təbəqələşmə prosesi baş vermişdir. Azatlar əsasən orta və xırda feodallar sinifini təşkil edirdilər. Onlar hərbi xidmət yerinə yetirir və ordunun əsas hissəsini təşkil edirdilər [3, s.79]. Albaniyada iri feodallar nahararlar, VI əsrdən başlayaraq işxanlar adlandırılırdı. Nahararlar və ya işxanlar mülki-bürokratik aparatda təmsil olunmaqla ayrı-ayrı vilayət hakimləri idilər [14, s.489]. Onlar orta və xırda feodalların süzereni rolunda çıxış edirdilər [5, s.158].

Kəndlilər arasında da təbəqələşmə prosesi baş vermişdi. Azad icmaçı kəndliləri təmsil edən şinakanlarla yanaşı, heç bir əmlaka malik olmayan və feodaldan tam asılı olan kəndlilər – ramiklər də mövcud idi [13, s.70-72]. Azad icmaçı kəndlilərin bir hissəsi varlanaraq xırda mülkədarlara, dehqanlara çevrilirdilər. Kəndlilər bir qayda olaraq feodalların mülkündə işləyir və feodallar tərəfindən verilən torpaqların daimi, bəzi hallarda isə hətta irsi istifadəçiləri idilər. Bir çox hallarda isə feodallar torpağı kəndlilərə icarəyə verirdilər. Deməli, Azərbaycanda da feodalizmin ən səciyyəvi xüsusiyyətlərindən biri olan iri feodal mülklərinin xırda fərdi kəndli təsərrüfatları ilə çulğalaşması prosesi baş vermişdi.

**Nəticə**

Beləliklə, Azərbaycanın şimal və cənub ərazilərində sosial-iqtisadi vəziyyətin təhlili göstərir ki, eramızın III-V əsrlərində burada feodal münasibətləri bərqərar olmuşdu. Lakin nəzərə almaq lazımdır ki, Azərbaycanda bərqərar olan feodal münasibətlərinin bir sıra xarakterik xüsusiyyətləri var idi. Belə ki, Azərbaycanda feodalların şəxsi təsərrüfatı demək olar ki, yox idi. Təsərrüfat düzəltmək əslində onlar üçün əlverişli deyildi. Çünki süni suvarma tələb edən təsərrüfat böyük xərc tələb edirdi. Beləliklə, Qərbi Avropa ölkələrindən fərqli olaraq Azərbaycanda əsas istehsal vasitəsi olan torpaq daha çox dövlətin mülkiyyətində idi. Lakin buna baxmayaraq dövlətin malik olduğu torpaqlar da feodal torpaq mülkiyyəti hesab olunurdu. Azərbaycanda feodal münasibətlərinin digər səciyyəvi xüsusiyyəti təhkimli kəndlilərin olmamasıdır. Belə ki, özünün şəxsi təsərrüfatı olmayan feodal asılı kəndlinin əməyindən istifadə etməyə ehtiyac duymurdu. Deməli, feodalı kəndli az maraqlandırırdı. Buna görə də, kəndlilərin torpağa təhkim edilməsi feodal üçün o qədər də maraqlı deyildi. Kəndlilərin torpağa təhkim edilməsi yalnız süni suvarma tələb etməyən Yuxarı Qarabağın alban feodallarının mülklərində yaranmışdı. Azərbaycanda feodal, əsasən, kəndlidən daha çox ödənc almaqda maraqlı idi. Bütün bunlarla yanaşı, Avropa ölkələrindən fərqli olaraq Azərbaycanda

feodal münasibətləri daha erkən yaranmış və daha uzun sürmüşdür (III-V əsrlərdən XIX əsrin ikinci yarısınadək).

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan tarixi: 7 cilddə. II c., Bakı: Elm, 2007, 596 s.

2. Kalankatuklu Moisey. Alban tarixi / Tərcümə, müqəddimə, qeyd və şərhlər Z.Bünyadovundur. Redaktoru M.İsmayılov. Bakı: "Avrasiya" press, 2006, 296 s.

3. Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı: Şərq-Qərb, 2007, 424 s.

4. Məmmədov T.M. Qafqaz Albaniyası ilk orta əsrlərdə. Bakı: Təhsil, 2006, 400 s.

5. Məmmədova F.C. Azərbaycanın (Albaniyanın) siyasi tarixi və tarixi coğrafiyası (e.ə. III – e. VIII əsrdə). Bakı: Azərnəşr, 1993, 262 s.

6. Алиев К.Г. Кавказская Албания (I в. до н.э. – I в. н.э.). Баку: Элм, 1974, 363 с.

7. Алиев К.Г. Античная Кавказская Албания. Баку: Азернешр, 1992, 238 с.

8. История агван Моисея Каганкатваци / Пер. К.Патканова. СПб.: Имп. Академии Наук, 1861, 374 с.

9. Касумова С.Ю. Южный Азербайджан в III-VII вв.: проблемы этно-культурной и социально-экономической истории) Баку: Элм, 1983, 166 с.

10. Касумова С.Ю. Азербайджан в III-VII вв. (этнокультурная и социально-экономическая история) Баку: Элм, 1993, 140 с.

11. Кафарзаде Л.Р. Вопросы раннесредневековой истории Азербайджана в англоязычной историографии. Баку: ИПО Турхан, 2017, 248 с.

12. Луконин В.Г. Иран при первых Сасанидов. Очерки по истории и культуры. Л.: Издательство Государственного Эрмитажа, 1961, 113 с.

13. Мамедова Ф.Дж. История Албан Моисея Каланкайтуского как источник по общественному строю раннесредневековой Албании. Баку: Элм, 1977, 198 с.

14. Мамедова Ф.Дж. Кавказская Албания и албаны. Баку: ЦИКА, 2005, 798 с.

15. Миллер В.К. Новый англо-русский словарь: около 200000 слов и словосочетаний / 15-е изд., испр., М.: Просвещение, 2021, 945 с.

16. Новосельцев А.П. Генезис феодализма в странах Закавказья (опыт сравнительно-исторического исследования). М.: Наука, 1980, 284 с.

17. Периханян А.Г. Сасанидский судебник "Книга тысячи судебных решений". Ереван: АН Арм. ССР, 1973, 572 с.

18. Пигулевская Н.В. К вопросу о податной реформе Хосроя Анушервана // Вестник Древней Истории, 1937, № 1, с. 143-154

19. Пигулевская Н.В. Переходные формы рабовладения в Иране по сирийскому сборнику пехлевийского права / Доклады советской делегации на XXIII Международном конгрессе востоковедов. М.: Наука, 1954, стр. 1-30 (с англ. переводом).

20. Османов Ф.Л. История и культура Кавказской Албании IV в. до н.э. – III в. н.э. (на основании археологических материалов). Баку: «Тахсил», 2006, 288 с.

21. Тревер К.В. Очерки по истории и культура Кавказской Албании (IV в. до н.э. – VII в. н.э.). М. – Л., АН СССР, 1959, 391 с.

22. Халилов Дж.А. Материальная культура Кавказской Албании (IV в. до н.э.- III в. н.э.). Баку: Элм, 1985, 276 с.

23. Ямпольский З.И. Древняя Албания III – I в. до н.э. Баку: АН Азерб. ССР, 1961, 380с.

24. The book of government or rules for kings. The Siyar al-Muluk or Siyasat-nama of Nizam al-Mulk / Translated by Hubert Darte. London and New York: Routledge, Taylor and Francis qroup, 2002, pp. 264

25. The history of the Caucasian Albanians by Movses Dasxuranci / Translated by C.J.F.Dowsett. London: Oxford University press, New York, Toronto, 1961, pp. 252

# TO THE PROBLEM OF GENESIS OF FEUDAL RELATIONS IN AZERBAIJAN

**N.Zeynalov**
Doctor of Philosophy in in History
Mingachevir State University

***Abstract:*** *The article is devoted to the problem of the genesis of feudal relations in Azerbaijan. The in-depth study of several problems of the medieval history of Azerbaijan is one of the important challenges facing the history of Azerbaijan. One of the essential problems in national historiography is the establishment and development of feudal relations in Azerbaijan. To be honest, it should be mentioned that the problem of the genesis of feudalism in Azerbaijan during the early Middle Ages became an object of research only in Soviet historiography the study of this problem attracted the attention of neither Western historians, nor historians of Tsarist Russia historiography. Unfortunately, the western historians who touched on these or other issues of the early medieval period of Azerbaijan interpreted these problems from the perspective of İranian history, and did not pay attention to the socioeconomic issues of the mentioned period.*

*Analysis of the socioeconomic situation in the northern and southern regions of Azerbaijan shows that feudal relations were established here in the III-V AD. During the period in question, forms of feudal land ownership were formed, the main classes of feudalism were formed, a deep stratification process took place within these classes, and feudal exploitation existed.*

***Keywords:*** *Azerbaijan, feudalism, feudal exploitation, Sassanians, Albania, Atropatene*

# К ПРОБЛЕМЕ ГЕНЕЗИСА ФЕОДАЛЬНЫХ ОТНОШЕНИЙ В АЗЕРБАЙДЖАНЕ

**Н.Д.Зейналов**
доктор философии по истории
Мингячевирский государственный университет

***Резюме:*** *Настоящая статья посвящена проблеме генезиса феодальных отношений в Азербайджане. Углубленное изучение отдельных проблем средневековой истории Азербайджана является одной из важных задач, стоящих перед историей Азербайджана. Одной из таких проблем, имеющей большую актуальность в историографии Родины, является проблема организации и развития феодальных отношений в Азербайджане. Справедливости ради следует отметить, что проблема генезиса феодализма в Азербайджане в эпоху раннего средневековья стала объектом исследования только в советской историографии, изучение этой проблемы не привлекло внимания ни западных историков, ни историков Царская Россия до советской историографии. Следует с сожалением отметить, что западные историки, затрагивавшие те или иные вопросы раннесредневекового периода Азербайджана, интерпретировали эти проблемы с позиций иранской истории, не уделяя внимания социально-экономическим проблемам указанного периода.*

*Анализ социально-экономической ситуации в северных и южных регионах Азербайджана показывает, что феодальные отношения здесь установились еще в III-V веках нашей эры. В рассматриваемый период сформировались формы феодальной собственности на землю, сформировались основные классы феодализма, внутри этих классов произошел глубокий процесс расслоения, существовала феодальная эксплуатация.*

***Ключавые слова:*** *Азербайджан, феодализм, феодальная эксплуатация, Сасанидов, Албания, Атропатена*

**Elmi redaktor: s.e.f.d., dos. E.Cəfərova**
**Çapa təqdim edən redaktor: tar.f.d., dos. N.Zeynalov**
**Daxil olub: 26.09.2024**

**Çapa qəbul edilib: 06.09.2024**